DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (327) / OKTYABR 2018-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV: MÜASİR AZƏRBAYCAN DÖVLƏTİ ÇOX DƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR ÜZƏRİNDƏ QURULUB

## Bakıda VI Beynəlxalq Humanitar Forum keçirilib

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

“Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söyləyib.




### *Prezident İlham Əliyevin nitqi*

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün VI Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram, xaricdən gələn qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edir. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, dünyada Foruma çox böyük maraq var. Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir. Əminəm ki, Forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar Forumun işinə çox böyük töhfə verəcəklər.

Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il biz “Bakı Prosesi”nin 10 illiyini qeyd edirik. “Bakı Prosesi” beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək. Qeyd etdiyim kimi, “Bakı Prosesi” artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirilir. Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın. Eyni zamanda, Azərbaycanda keçirilmiş mötəbər idman yarışları da idman yarışları olsalar da, eyni zamanda humanitar əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Mən xüsusilə birinci Avropa Oyunlarını və İslam Həmrəylik Oyunlarını qeyd etmək istərdim. Hesab edirəm, o da çox rəmzi məna daşıyır ki, ilk Avropa Oyunları bizim təşəbbüsümüzlə Azərbaycanda keçirilmişdir.

davamı səh. 2

AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İMAM HÜSEYN MƏSCİDİNİN BƏRPADAN SONRA AÇILIŞINDA İŞTİRAK EDİB



Səh. 4

Forumun işçi sessiyasında “Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi” mövzusu müzakirə olunub




Səh. 5

Avropa İttifaqının nümayəndə heyəti Heydər məscidi, sinaqoq və kilsə ilə tanış olub



Səh. 8

YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Səh. 10

əvvəli səh. 1

Hesab edirəm, bu, çox əlamətdar hadisə, əlamətdar qərardır ki, ilk Avropanın Oyunları müsəlman ölkəsində keçirilmişdir. Ondan iki il sonra - 2017-ci ildə Bakıda dördüncü İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Yenə də qeyd etmək istəyirəm, bunlar idman yarışlarıdır və bu iki oyunda on minə yaxın idmançı iştirak edib. Amma, eyni zamanda, biz bu oyunlara humanitar əməkdaşlıq prizmasından yanaşırıq, baxırıq və doğrudan da oyunlar zamanı Bakıda və digər bölgələrdə yaşanan gözəl ab-hava, gözəl həmrəylik iqlimi hesab edirəm ki, ümumi işimizə növbəti töhfə olmuşdur. Biz bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Xüsusilə indiki şəraitdə ki, yenə də qeyd etmək istəyirəm, həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, İslam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsi və bu Foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var.

Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim

multikulturalizmlə bağlı müxtəlif fikirlər səsləndirilir. Hesab edirəm ki, Forumda bu məsələ çox geniş müzakirə olunacaqdır.

2017-ci ili isə biz "İslam Həmrəyliyi İli" elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə də problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıqla, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik.

Qeyd etdiyim kimi, biz humanitar əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu məsələlər dost ölkələrlə həm ikitərəfli formatda, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində daim gündəlikdədir. Ancaq biz özümüz böyük humanitar fəlakətlə üzləşmişik. Bir həftə bundan əvvəl – oktyabrın 18-də biz Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etmişik. Cəmi 27 ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqilliyimizin ilk günləri, ilk illəri çox ağır və faciəvi idi. Həm siyasi böhran, daxili çəkişmələr, vətəndaş müharibəsi, iqtisadi tənəzzül, kütləvi itaətsizlik, eyni zamanda Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük fəlakətə, bəlalara gətirib çıxardı. Ermənistanın işğalçılıq siya-



atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.

Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, millimənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim Sərəncamımla 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır. Biz çalışdıq ki, 2016-cı ildə diqqəti bu önəmli məsələyə cəlb edək. Xüsusilə nəzərə alsaq ki, bu gün, bir daha qeyd etmək istəyirəm,

səti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, xalqımıza qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər, o cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələrin qəbul olunmasından 25 il keçir. Ermənistan bu qətnamələri icra etmir və əfsuslar olsun, hələ də beynəlxalq mexanizm işlənilməyib ki, təcavüzkarı beynəlxalq aparıcı qurum tərəfindən qəbul edilmiş qətnamələrin icrasına məcbur etsin. BMT-nin Baş Assambleyası oxşar qətnamə qəbul edib, digər beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur. Münaqişənin həlli üçün yeganə yol məhz budur, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmalıdır, - necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərilir, - və Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtmalıdırlar.

Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir. Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib.

davamı səh. 3

əvvəli səh. 2

İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində.

Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Makroiqtisadi sabitlik Azərbaycanda çox yüksək səviyyədədir. Deməliyəm ki, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Bununla belə, bizim maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, istədiyimiz halda biz xarici borcumuzu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilərik. Ona görə iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. Əgər biz sosial sahənin önəmli istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşübdür. İşsizlik bir sosial problem kimi demək olar ki, aradan götürülür, işsizlik 5 faiz səviyyəsindədir. Nəzərə almalıyıq ki, bu illər ərzində ölkə əhalisi də artır və əhali hər il ən azı 100 min nəfər artır. Ona görə bizim iqtisadi inkişafımız və o cümlədən sosial infrastrukturun yaradılması daimi proses olmalıdır. Biz bu sahədə də çox böyük işlər görmüşük.

Forumda müzakirə olunacaq məsələlərdən biri də təhsillə bağlıdır. Deyə bilərəm ki, təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsi prioritet məsələlərdən biridir. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıbdır. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr vardır.

Ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılıbdır. Son 15 il ərzində 650-dən çox tibb müəssisəsi yenidən qurulub, əsaslı təmir edilib və tikilib. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçir. Yəni, bunlar humanitar sahənin çox önəmli hissələridir və bundan sonra da bu istiqamətlər üzrə ardıcıl siyasət aparılacaq.

Mən idman yarışlarını qeyd etdim. Amma onu da bildirməliyəm ki, idman sahəsində də böyük uğurlar əldə edilib. İdmanın maddi-texniki bazası qurulub. Təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində 45 müasir Olimpiya İdman Mərkəzi yaradılıb. Son Olimpiya Oyunlarında - Rio-de-Janeyroda keçirilmiş Olimpiadada medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülüb.

Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk.

"ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür. Əgər qonaqlarda imkan olarsa, onlar Bakı şəhərində fəaliyyət göstərən beş mərkəzdən birinə baş çəkə bilərlər. Görə bilərlər ki, doğrudan da Azərbaycan texnologiyaları əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan "ASAN xidmət" necə fəaliyyət göstərir. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların "ASAN xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, - çünki qonaqların bir hissəsi ilk dəfədir ki, ölkəmizə gəlib, - sadəcə olaraq, çıxışımın yekununda bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu məsələ həm humanitar əməkdaşlığı dərinləşdirir, həm də qarşılıqlı maraqları təmin edir. Hesab edirəm ki, humanitar əməkdaşlıq deyəndə biz mütləq bunun gözəl nəticələrini görməliyik və bilməliyik ki, bu, nəyə gətirib çıxaracaqdır.

Sonuncu mövzu nəqliyyat siyasətimizlə bağlıdır. Azərbaycanın coğrafi vəziyyəti əlverişlidir, ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyətin heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Ona görə bizim bütün nəqliyyat, enerji, kommunikasiya xətlərimiz başqa ölkələrin ərazisindən keçməlidir. Əlbəttə, qeyd etdiyim kimi, buna nail olmaq üçün mütləq, ilk növbədə, qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri olmalıdır və bunlar da var. Biz bir neçə il bundan əvvəl nəqliyyat sahəsində qarşıya vəzifə qoymuşduq ki, Azərbaycan nəinki bu bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilsin. Bu məqsədə doğru ardıcıl olaraq getməyə başlanmışdır və bu gün tam əminliklə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Ölkəmizdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb, 6 beynəlxalq hava limanı, Azərbaycanı bütün qonşu ölkələrlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları, son 15 ildə salınmış 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200–dən çox gəmisi olan ən böyük ticarət donanması. Yəni, bütün bunlar böyük vəsait tələb edən layihələrdir və onlar həll olunub. Nəhayət, Xəzər dənizinin önəmli, yeni ticarət limanının bu il istifadəyə verilməsi bu işləri tamamlayıb. Bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə bu il bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıbdır. Bu, hələ başlanğıcdır. Bu gün bu önəmli iki istiqamətə digər istiqamətlərdən qoşulma halları müşahidə olunur. Biz bu gün artıq Cənub-Qərb nəqliyyat dəhlizini təmin edirik və Şərq-Qərb nəqliyyat dəhlizi də Azərbaycan ərazisindən keçir. Bütün bu nəqliyyat, infrastruktur layihələrində iştirak edən yeganə ölkə Azərbaycandır. Bu nəqliyyat bağlılığı, eyni zamanda, mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə, bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır. Ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək üçün xüsusilə qonşu ölkələrlə, ənənəvi dost ölkələrlə münasibətlərdə mütləq humanitar sahəyə böyük önəm verilməlidir. Bu olmasa, bütün başqa sahələrdə də problemlər yaşana bilər.

Ona görə, mən bir daha qeyd etmək istəyirəm ki, biz humanitar əməkdaşlığa çox böyük diqqət göstəririk, bir çox təşəbbüslər irəli sürmüşük. Onlardan biri Bakı Beynəlxalq Humanitar Forumudur ki, bu gün öz işinə başlayır. Əminəm ki, aparılacaq diskussiyalar, müzakirələr bizim ümumi işimizə gözəl töhfə verəcəkdir.

Forumun iştirakçılarını bir daha salamlayır və Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

Daha sonra Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub, BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Çu Sin, Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron geniş məruzə ilə çıxış ediblər.

* * *

Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatıb.

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

# AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İMAM HÜSEYN MƏSCİDİNİN BƏRPADAN SONRA AÇILIŞINDA İŞTİRAK EDİB



Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib.

Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir. Bu sahədə Heydər Əliyev Fondunun da gördüyü işlər böyük əhəmiyyətə malikdir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verib.

Bildirilib ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.

Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya Müqəddəs Qurani-Kərim hədiyyə edib.

Dövlət-din münasibətlərinin Azərbaycan modeli bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Azərbaycanın bu istiqamətdəki siyasəti artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiq, onları qoruyan, eyni zamanda müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyən bir ölkə kimi tanınır.



# Dövlət Komitəsinin sədri Avropa İttifaqının nümayəndə heyəti ilə görüşüb



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 29-da ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Xarici siyasət üzrə ali nümayəndəsinin müavini Jan-Kristof Belliardın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycanın Avropa İttifaqının xüsusi önəm verdiyi tərəfdaş ölkələrdən biri olduğunu bildirən Dövlət Komitəsinin sədri ikitərəfli münasibətlərin əhəmiyyətinə toxunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il iyulun 11-də Brüsselə səfəri zamanı imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədinin qarşılıqlı əlaqələrin inkişafında böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Mübariz Qurbanlı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Aİ-nin Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini və bunun ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

Görüş zamanı rəhbərlik etdiyi qurumun fəaliyyəti, Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, dinə dövlət qayğısı, dinlərarası harmoniya barədə məlumat verən Mübariz Qurbanlı bildirib ki, dini və etnik müxtəliflik ölkəmizin ən böyük zənginliyidir. O, ölkəmizdə rəsmi olaraq 31-i qeyri-islam təmayüllü olmaqla 861 dini qurumun qeydiyyatdan keçdiyini, formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi üçün görülən işlər sayəsində respublikamızda 14 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini bildirib. Ölkəmizin milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural dəyərlərin təşviqi baxımından nümunəvi modelə malik olduğunu deyən Dövlət Komitəsinin sədri Azərbaycanda mütəmadi olaraq dini ibadətgahların inşa və bərpa edildiyini, müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımları ayrıldığını deyib.

Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini diqqətə çatdıran M.Qurbanlı VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində multikulturalizmlə bağlı işçi sessiya keçirildiyini xatırladıb. Aİ və DQİDK-nın birgə layihəsi çərçivəsində 2017-2018-ci illərdə Brüsseldə baş tutan görüşlərin önəmindən danışan Mübariz Qurbanlı bunun fəaliyyət göstərən dini icmalar və mövcud dini durumla bağlı daha obyektiv fikirlərin formalaşmasına mühüm təsir göstərdiyini söyləyib.

Respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edən Aİ-nin Xarici siyasət üzrə ali nümayəndəsinin müavini Jan-Kristof Belliard ölkəmizdəki tolerantlıq mühiti barədə ilk təəssüratının DQİDK-nın nümayəndə heyətinin Brüsselə səfəri zamanı yarandığını bildirib.



Azərbaycandakı dini rəngarənglik, multikultural və həmrəylik mühitinə, vəhdət namazlarına heyranlığını dilə gətirən qonaq Azərbaycan dövlətinin tarixən gələn tolerant dəyərlərin qorunması, təşviqi istiqamətində həyata keçirdiyi siyasəti təqdir etdiyini qeyd edib. Əməkdaşlığın önəminə toxunan J.Belliard bu ilin dekabr ayında Bakıda keçirilməsi planlaşdırılan "Dinlərarası tolerantlıq və radikalizmlə mübarizə" adlı konfransın Azərbaycanın bu sahədə əldə etdiyi təcrübənin bölüşməsi baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda nümayəndə heyətinin üzvlərinə Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

Qeyd edək ki, görüşdə Aİ-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas da iştirak edib.

# Forumun işçi sessiyasında "Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi" mövzusu müzakirə olunub






Oktyabrın 25-də VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi" mövzusunda işçi sessiya keçirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun moderatorluğu ilə keçirilən sessiyada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdulla çıxış edərək deyib ki, bu gün Azərbaycanın multikulturalizm modeli dünyada qəbul edilir və öyrənilir. Bu gün Azərbaycan multikulturalizmi dünyanın bir sıra aparıcı universitetlərində tədris olunur. Xarici universitetlərdə Azərbaycan multikulturalizmini öyrənən tələbələrin ildə iki dəfə ölkəmizə səfərləri təşkil edilir.

Qeyd olunub ki, Azərbaycanda keçirilən tədbirlər multikulturalizmin nikbin qütbündə duran insanları öz sırasında birləşdirir. Biz multikulturalizmin bu gününə və sabahına inanırıq. Azərbaycan Prezidentinin imzaladığı sərəncamlar multikulturalizmin dönməz yolunu müəyyən edib. Azərbaycan xalqının canında-qanında olan başqa xalqlara xoş münasibət həmişə özünü göstərib. Əsrlərdən bəri ölkəmizdə müxtəlif xalqların nümayəndələri qardaş kimi yaşayıblar. Azərbaycan bu gün çoxkonfessiyalı ölkə kimi dünyada özünü təsdiq edib. Biz bu gün fəxrlə Azərbaycan modelini bütün dünyada təbliğ edirik.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə deyib ki, Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam və inkişaf etdirir. Dünyanın siyasi, iqtisadi və dini zəmində narahat gündəm yaşadığı bir dövrdə tarixən çoxmillətli və çoxkonfessiyalı ölkə, milli, dini tolerantlıq və multikultural ənənələr diyarı olan Azərbaycanda sülh məramı, qarşılıqlı ehtiram məfkurəsi, humanist dəyərlərin bəşəriyyətə bəyan edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.

Vurğulanıb ki, Azərbaycan torpaqlarında müsəlmanlarla yanaşı, pravoslavlar, katoliklər, yəhudilər və digər etiqad sahibləri əsrlər boyu bir ailə kimi yaşayır, ibadət və mərasimlərini sərbəst şəkildə icra edirlər. Azərbaycanda daxili sabitlik mövcuddur. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır. Dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi"nin müəllifi, İslam mədəniyyətinin ümumbəşəri əhəmiyyətinə, dinimizin sülhsevər mahiyyətinə yüksək dəyər verən Prezident İlham Əliyev 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməklə olduqca müdrik qərarlar verib. Prezident İlham Əliyev Azərbaycanı bu ideyaların mərkəzində duran bir ölkə kimi gündəmə gətirməklə, ölkəmizi qlobal miqyasda ümumbəşəri ideyaların carçısına çevirməklə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük bir siyasi-mənəvi nailiyyətə imza atmış oldu. Humanitar forumların mütəmadi şəkildə Bakıda keçirilməsi bu təşəbbüslərin sırasında xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın dünyaya multikulturalizm, İslam həmrəyliyi ideyalarını təqdim etməklə qüdrətli ölkəyə çevrildiyini söyləyən Allahşükür Paşazadə deyib: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında mədəni sahədə fəaliyyəti, milli-mənəvi irsimizi ən yüksək səviyyədə təbliğ etməklə yanaşı, ümumbəşəri dəyərlərə diqqət və himayəsi ölkəmizi bu istiqamətdə böyük nüfuz sahibi edib".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanda tarixən ayrı-ayrı mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailənin üzvü kimi yaşayıblar. Müxtəlif mədəniyyətlərə və dinlərə məxsus etnosların tarix boyu bu torpaqlarda əmin-amanlıq şəraitində yaşamasında xalqımıza xas olan humanizm və xoşniyyətlilik kimi ali dəyərlər, eyni zamanda İslam dəyərləri müstəsna rola malikdir. Ölkəmizin coğrafi mövqeyi, əhalisinin etnik tərkibi qədim dövrdən burada fərqli dinlərin mövcudluğuna şərait yaradıb. Sovetlər Birliyi dağılan dövrdə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2200-dən çoxdur. Hazırda ölkə ərazisində 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Vətəndaşların böyük əksəriyyəti müsəlman olan ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Ölkəmizdə dövlət qeydiyyatından keçmiş 861 dini icma fəaliyyətdədir. Bunlardan 830-u İslam, 31-i qeyri-İslam təmayüllüdür.

Ölkədə fəaliyyət göstərən bütün dini icmalara öz dini ayinlərini həyata keçirmək üçün lazımi şəraitin yaradıldığını söyləyən komitə sədri deyib: "Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dövlət tərəfindən İslam dini icmaları ilə yanaşı, digər dini icmalara da mütəmadi olaraq maliyyə yardımı ayrılır".

Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrasının müdiri professor Kamilə Əliyeva diqqətə çatdırıb ki, bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində danışır, öz dini inanclarına uyğun ibadət edir, adət-ənənələrini yaşadır, heç bir ayrı-seçkiliklə üzləşmədən müxtəlif sahələrdə fəaliyyət göstərərək ümumi inkişaf prosesinə öz töhfələrini verirlər. Azərbaycanda dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir-birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir: "Tarixi Azərbaycan torpaqlarının 20 faizinin monokultural siyasət yürüdən Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından qovulmasına, minlərlə soydaşımızın terrora məruz qalmasına baxmayaraq, ölkəmizdə multikultural dəyərlərə xüsusi önəm verilir. Təkcə bu faktın özü Azərbaycan dövlətinin və xalqının yüksək tolerant və multikultural mənəviyyatının bariz sübutudur. Azərbaycanda bütün konfessiyalar arasında mehribanlıq, qarşılıqlı anlayış və sıx əməkdaşlıq ölkəmizdəki tolerantlıq mühitinin bundan sonra da qorunub saxlanılmasının qarantıdır".

Sessiyada Hindistanın "Art of Living" Fondunun mənəvi rəhbəri Sri-Sri Ravi Şankar, Monteneqronun mədəniyyət naziri Aleksandr Boqdanoviç, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, UNESCO-nun xoşməramlı səfiri, Fransanın mədəniyyət diplomatiyasının xüsusi nümayəndəsi Hedva Ser və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ nümayəndəliyinin rəhbəri, Vaşinqton Hüquq Assosiasiyasında məsləhətçisi Janna Skot ölkəmizdə multikulturalizmə verilən önəmi yüksək qiymətləndiriblər. Bildirilib ki, multikulturalizm insanların birgəyaşayışı və firavanlığı üçün xüsusi əhəmiyyət kəsb edir.

Moskva Dövlət Linqvistik Universitetinin rektoru İrina Krayevanın moderatorluğu ilə keçirilən sessiyanın ikinci hissəsində Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, İtaliyanın Link Kampus Universitetinin professoru Alesandro Fiqus, Pakistan-Amerika Məsələləri Şurasının nümayəndəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ABŞ nümayəndəliyinin müşaviri Adnan Xan, ABŞ Prezidentinin təyin etdiyi Milli və Yerli Könüllü Cəmiyyətlər Xidmətinin səlahiyyətli nümayəndəsi, BBMM-in ABŞ nümayəndəliyinin müşaviri Hyepin İm, BBMM-in İsrail nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert Arye Qut, Mərkəzin Drezden nümayəndəliyinin rəhbəri Birgit Vaysgerber və Rusiyanın siyasi analitiki Oleq Kuznetsov mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

# Bakıda "Dini mərasimlər: tarix, ənənə və hüquq" mövzusunda konfrans keçirilib



Oktyabrın 15-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini mərasimlər: tarix, ənənə və hüquq" mövzusunda konfrans keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Milli Məclisin və müvafiq dövlət qurumlarının nümayəndələri, dini icma sədrləri, elm və din xadimləri, alimlər, ilahiyyatçılar və gənclər iştirak ediblər.

DQİDK-nın sədri Mübariz Qurbanlı tədbir iştirakçılarına konfransın mahiyyəti ilə bağlı məlumat verib. Bildirib ki, Dövlət Komitəsi bu sahədə aidiyyəti dövlət qurumları, elm və təhsil müəssisələri, qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq qurur, dini maarifləndirmə tədbirlərinə xüsusi önəm verir.

Mərasimlərin insanların inanc və mədəniyyətinin simvolik ifadəsi olduğunu vurğulayan Dövlət Komitəsinin sədri onların tarixi kökləri olmaqla yanaşı, müəyyən dəyişikliyə məruz qaldıqlarını diqqətə çatdırıb. Qeyd edib ki, bu mərasimlər müxtəlif mədəniyyətlərdə məzmunca bənzər, lakin formaca müxtəlif şəkillərdə icra edilir.

Mübariz Qurbanlı qeyd edib ki, dini mərasimlər zamanı insanlar bəzən həddən artıq ifrata varırlar. Bu, adətən məlumatsızlıq, xüsusilə dini savadsızlıqdan irəli gəlir. Dövlət Komitəsinin sədri dini mərasimlərin israfçılıqdan uzaq, mümkün qədər dinin əsas mənbələrinə uyğun, eləcə də ictimai inkişafla ayaqlaşa bilən şəkildə keçirilməsinin önəmini vurğulayıb. Onun sözlərinə görə, bu mərasimlərdə vətəndaşların heç bir hüquqi məsuliyyəti yoxdur. Bu, birbaşa mənəviyyat məsələsidir. Bəzən ali təhsilli, dünyagörüşlü insanlar bu mərasimlərin keçirilməsi zamanı israfçılığa yol verir. Komitə sədri bu cür halların qarşısının alınmasında maarifləndirmə işinin daha da gücləndirilməsinin vacibliyinə diqqət çəkib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun prorektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Mərasimlər: tarix, reallıq və din" mövzusunda çıxış edib. Bildirib ki, bəşəriyyətin tarixinə nəzər salsaq, mərasim və ayinsiz bir cəmiyyətə rast gəlinmir. Mərasimlər hisslərimizin təzahürləridir. Onun sözlərinə görə, mərasimsiz heç bir din mövcud olmayıb. Hansısa cəmiyyət yeni dini qəbul etdik də belə, o cəmiyyətin keçmiş adət-ənənələri silinib getmir. A.Şirinov vurğulayıb ki, sosioloqlar ictimai baxımdan mərasimlərin çox böyük əhəmiyyətə malik olduğunu qeyd edirlər.

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri, deputat Siyavuş Novruzov çıxışında bildirib ki, Azərbaycanda dini mərasimləri İslam dini, ənənələrlə yanaşı, qanunlarla da tənzimləmək zəruridir: "Mərasimlər elə qaydada olmalıdır ki, bir-birindən fərqlənməsin, uyğunluq təşkil etsin, israfçılığa yol verilməsin". Qeyd edib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə mühüm addımlar atır. Artıq bəzi bölgələrimizdə dini mərasimlər sadələşdirilmiş formada keçirilir. Lakin hələ də bir çox rayonlarda israfçılığa yol verilir: "Cəmiyyəti inandırmalıyıq ki, mərasimlərdə israfçılığa yol vermək lazım deyil, dində də belə bir şey yoxdur. Elə etməliyik ki, insanlar mərasimdən sonra uzun müddət maddi çətinlik çəkməsinlər".

Məzarlıqlar haqqında da danışan Siyavuş Novruzov diqqətə çatdırıb ki, nümunəvi qəbiristanların yaradılması ilə bağlı hazırlanan yeni qanun layihəsinin qəbul edilməsindən sonra, kimliyindən asılı olmayaraq, hər kəsin eyni səviyyədə və formada dəfn edilməsi təmin olunacaq.

Dini mərasimlərin siyasi-hüquqi tərəfinə toxunan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin aparıcı məsləhətçisi Anar Əlizadə bildirib ki, Azərbaycanda dövlət-din münasibətləri dünyəvi prinsiplər əsasında qurulub. Dini mənsubiyyətindən asılı olmayaraq dini ayinlərin, mərasimlərin icrasında hər kəs üçün azad və bərabər şərait yaradılıb. Amma bu o demək deyil ki, dini mərasimlərin keçirilməsi zamanı hüquqi qaydalara, ictimai normalara riayət olunmamalıdır. Ona görə də dini mərasimlər ictimai asayişi pozmadan həyata keçirilməlidir. Heç kəs dini mərasimləri yerinə yetirməyə və dini mərasimlərdə iştirak etməyə məcbur edilməməlidir.

A.Əlizadə əlavə edib ki, xarici dairələr tərəfindən idarə olunan və İslam adı altında hərəkət edən bəzi radikal qruplaşmalar dini mərasimləri siyasi şüarlar səsləndirmək vasitəsinə çeviriblər. Dini mərasimləri yerinə yetirərkən ifrat hərəkətlərə və xurafata yol verilməməlidir. Lakin belə neqativ sosial təzahürlər, mənfi hallar inzibati yollarla deyil, daha çox müntəzəm maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ilə aradan qaldırılmalıdır.

Sonra Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini Fuad Nurullayev maarifləndirmə tədbirlərinin israfçılığa, xurafata, eləcə də mövhumatçılığa qarşı mübarizədə əvəzsiz rolundan bəhs edib. Bu istiqamətdə DQİDK və QMİ-nin təşkilatçılığı ilə həm paytaxtda, həm də regionlarda keçirilən tədbirlərin önəminə toxunub.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, AMEA-nın Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov və şərqşünas alim Nəriman Qasımoğlu mövzu ilə bağlı ətraflı çıxış ediblər.

Konfrans müzakirələrlə davam edib.

# Mübariz Qurbanlı Göyçayda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 23-də Göyçayda Ucar, Zərdab, Kürdəmir və Göyçay rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə Ümummilli Lider Heydər Əliyevin rayonda ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Göyçay rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.



# Göyçayda “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans keçirilib




Oktyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans keçirilib.

Regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Göyçay Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar iştirak ediblər.

Konfransı açan rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar olub. M.Səlimzadə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki dini dözümlülük və tolerantlığın dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirildiyini vurğulayıb.

Mehdi Səlimzadə Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada yüksək qiymətləndirildiyini söyləyib. O, eyni zamanda ölkəmizdəki dövlət-din münasibətləri çərçivəsində bütün dini konfessiyaların qanun qarşısında eyni statusa malik olduğunu qeyd edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunmasına, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə geniş imkanlar açıb. Vurğulanıb ki, bu model Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və dünyada artıq nümunə kimi qəbul olunur. Dövlətimizin başçısının bu istiqamətdə atdığı addımlar davamlı xarakter daşıyır, eləcə də multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır.

Dövlətin din siyasətinin tərkib hissəsində milli-mənəvi dəyərlərimizin qorunmasının önəmli yerlərdən birini tutduğunu deyən DQİDK sədri bu dəyərlərin qorunmasında dini maarifləndirməyə xüsusi diqqət yetirildiyini qeyd edib. M.Qurbanlı diqqətə çatdırıb ki, keçirilən konfransların, görüşlərin əsas məqsədi dini maarifləndirmə yolu ilə milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində aparılan işlərə töhfə vermək və yad dini ideologiyaların yayılmasına qarşı mübarizə aparmaqdır. O, cəmiyyətdə, xüsusilə gənclər arasında xurafatın, eləcə də zərərli vərdişlərin, zərərli dini cərəyanların təbliğ etdiyi ideyaların qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirildiyini bildirib. Din pərdəsi altında gizlənən radikal qrupların məqsədinin stabilliyi pozmaq, xaos yaratmaq yolu ilə öz siyasi ambisiyalarını həyata keçirmək olduğunu qeyd edən Komitə sədri Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən bu cür halların qarşısının qətiyyətlə alındığını diqqətə çatdırıb.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov dövlətin dinə və din xadimlərinə qayğısından bəhs edib. Ə.Məmmədov diqqət və qayğıya görə bölgə dindarları adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək, dindarların bütün məsələlərdə daim dövlətin yanında olduğunu söyləyib.

Konfrans öz işini oktyabrın 24-də Göyçay şəhər 1 saylı orta məktəbdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinlərinin, “Həyat bilgisi” fənnini tədris edən müəllimlərin və məktəb psixoloqlarının iştirakı ilə “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirib.

***

Növbəti gün regional konfrans öz işini “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirib.

Göyçay şəhər 1 saylı orta məktəbdə keçirilən tədbirdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gəncləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Zivər Zeynalova rayondakı dini durum barədə məlumat verib. Vurğulayıb ki, Göyçay rayonunda 33 məscid var və bu məscidlərdə vəhdət halında dini ayinlər icra edilir. Onun sözlərinə görə, 24 məsciddə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçmiş dini icma fəaliyyət göstərir.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının göstəricisidir.

Gündüz İsmayılov, eyni zamanda vurğulayıb ki, ibadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslamın vəhdət və qardaşlıq dini kimi xarakterizə olunması təsadüfi deyil. Çünki dinimizin əsas məqsədi həm də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır. O deyib ki, İslam meydana çıxdığı gündən elmə böyük dəyər verib, elm öyrənməyi, təhsil almağı ibadət səviyyəsinə qədər yüksəldib.

Sədr müavini dinimizdə radikalizm və ekstremizmin olmadığını, tam əksinə, İslam dininin sülh, qardaşlıq, birlik dini olduğunu dinləyicilərin diqqətinə çatdırıb.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dini maarifləndirmə tədbirlərindən danışaraq ekstremizm və radikalizmlə mübarizədə həmrəyliyin vacibliyini diqqətə çatdırıb. Natiq bildirib ki, Dövlət Komitəsinin sifarişi ilə çəkilən “Fitnə”, “Şəhadət” sənədli filmləri də radikalizmə qarşı mübarizədə önəmli rola malikdir.

Tədbir mövzu ətrafında müzakirələrlə başa çatıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ABŞ KANALINA MÜSAHİBƏ VERİB



VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan ABŞ-ın nüfuzlu mətbu orqanlarında nəşr edilən çoxsaylı məqalələrin müəllifi jurnalist Raul Kontreras oktyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıdan Amerikanın ən çox izlənilən kanallarından olan “One America News Network” üçün müsahibə alıb.

Dövlət Komitəsinin sədri kanala müsahibəsində müstəqil Azərbaycan dövlətinin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət, dinlər, mədəniyyətlər arasında əməkdaşlığın qurulması istiqamətində görülən işlər, eyni zamanda Ermənistanın Azərbaycana təcavüzü, işğal altında olan mədəniyyət və dini abidələrin işğalçılar tərəfindən dağıdılması haqqında həqiqətlər barədə danışıb.

Mübariz Qurbanlı bildirib ki, ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənib, bu sahə dövlət siyasətinin prioritet istiqamətinə çevrilib. Etnik və dini zəmində münaqişələrin baş verdiyi, dini və irqi ayrı-seçkilikdən milyonlarla insanın əziyyət çəkdiyi bir dövrdə Azərbaycan dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrilib. Prezident İlham Əliyevin Azərbaycanda tolerantlığın və dini etiqad azadlığının təminatçısı olduğunu diqqətə çatdıran Komitə sədri qeyd edib ki, ölkəmizdə İslam dini ilə bağlı tarixi abidələr, məscid və ziyarətgahlarla bərabər, xristian və yəhudi məbədlərinin tikintisi və bərpası bütün dünyaya nümunə göstəriləcək həqiqətdir.

Sonda jurnalistə Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, Azərbaycandakı dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim olunub.

# Dövlət Komitəsində görüşlər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Oktyabrın 3-də Amerika Bibliya Cəmiyyətinin Beynəlxalq missiyası departamentinin direktor müavini Çarlz Lambert ilə görüşüb.

Görüş zamanı DQİDK-nın sədri qonağı ölkəmizdəki dövlət-din münasibətləri və multikultural mühit barədə məlumatlandırıb. Bildirib ki, demokratik, dünyəvi və hüquqi dövlət olan Azərbaycanda din dövlətdən ayrı olsa da, bu sahəyə daim diqqət və xüsusi qayğı göstərilir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət fundamental azadlıqlardan olan dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin daha da möhkəmlənməsinə yönəlib. O, ölkəmizdə 20-si xristian olmaqla 31 qeyri-islam təmayüllü dini icmanın dövlət qeydiyyatına alındığını, 14 kilsənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Amerika Bibliya Cəmiyyətinin nümayəndəsi Çarlz Lambert ölkəmizdəki dinlərarası harmoniya və etnik-dini tolerantlıqdan danışaraq "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının fəaliyyəti üçün yaradılan yüksək şəraitdən məmnunluğunu ifadə edib.

Sonda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim olunub.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 16-da Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Cenevrə və Vyanada yerləşən qərargahlarının əməkdaşları Ceyson Aplon, Aleksandr Doqqen və BMqT-nin Azərbaycan Nümayəndəliyinin rəhbəri Sərhan Aktoprak ilə görüşüb.

Görüş zamanı DQİDK sədri qonaqlara Azərbaycandakı dini vəziyyət, nümunəvi dövlət-din münasibətləri, Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, eləcə də konfessiyalararası harmoniya və tolerantlıq modeli barədə məlumat verib.

Bildirib ki, ölkəmizdə multikulturalizm, dini həmrəylik mühitinin və sivilizasiyalararası dialoqun təşəkkülünə dəstək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanda bütün konfessiyaların nümayəndələri Prezident İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunub.

BMqT-nin Azərbaycan Nümayəndəliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə layihələrinin uğurla həyata keçirilməsindən məmnunluqlarını ifadə edən qonaqlar faydalı əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıblar.





* * *

Oktyabrın 17-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov "Yehovanın Şahidlərinin Avropa Assosiasiyası"nın sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

Sədr müavini qonaqlara ölkəmizdəki sabit dini durum, nümunəvi tolerantlıq mühiti, eləcə də dinlərarası harmoniya barədə məlumat verib. Bildirib ki, ölkədə vicdan və dini etiqad azadlığının təmin edilməsinə, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirilir. S.Heydərov vurğulayıb ki, Azərbaycanda əhalinin böyük əksəriyyətini təşkil edən müsəlmanlarla yanaşı, digər dinlərin mənsublarına da öz inanc və etiqadlarına uyğun yaşamaları üçün bərabər şərait yaradılıb, bütün dini icmalar dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Söhbət əsnasında bəzi beynəlxalq hesabatlarda ölkəmizdə adıçəkilən icmanın fəaliyyətinin məhdudlaşdırılması barədə qeyri-obyektiv məlumatların yer aldığı diqqətə çatdırılıb. "Yehovanın Şahidlərinin Avropa Assosiasiyası"na bu cür qərəzli informasiyalara qarşı obyektiv mövqe nümayiş etdirmələri tövsiyə olunub.

Qurumun sədri Toni Breys Azərbaycanda dini icma üzvlərinin sərbəst fəaliyyətinə görə yaradılan şəraitə, eyni zamanda icmanın rastlaşdığı problemlərin həllində göstərilən dəstəyə görə razılığını ifadə edib. Beynəlxalq hesabatlarda həqiqətə uyğun olmayan məlumatların yayılmasının qarşısının alınması üçün səy göstərəcəklərini bildirib.

# Avropa İttifaqının nümayəndə heyəti Heydər məscidi, sinaqoq və kilsə ilə tanış olub

Oktyabrın 29-da ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Xarici siyasət üzrə ali nümayəndəsinin müavini Jan-Kristof Belliardın başçılıq etdiyi nümayəndə heyəti Heydər məscidi ilə tanış olub.

Qonaqlara bildirilib ki, Cənubi Qafqazın ən böyük məscidi olan Heydər məscidi Prezident İlham Əliyevin tapşırığı ilə inşa olunub. 2014-cü il dekabrın 26-da istifadəyə verilən ibadətgah 12.000 kvadratmetr ərazidə tikilib. Möhtəşəm memarlıq əsərinin fasadında və daxilində xüsusi bəzək elementlərindən istifadə olunub. 4 minarəsi olan məsciddə dindarların sərbəst şəkildə ibadət etmələri üçün hər cür şərait yaradılıb.

Nümayəndə heyətinə, eyni zamanda məsciddə qılınan vəhdət namazları barədə məlumat verilib. Heydər məscidində vəhdət namazının artıq ənənə halını aldığı, dini dözümsüzlüyün, irqi ayrı-seçkiliyin və islamofobiyanın bütün dünyada geniş yayıldığı bir dövrdə bunun dünyaya həmrəylik və sülh mesajı olduğu vurğulanıb.

Daha sonra Bakıdakı "Dağ yəhudiləri"nin sinaqoqunu və Rus Pravoslav kilsəsini ziyarət edən qonaqlar ölkəmizdə mövcud olan tolerantlıq və multikultural mühiti, eyni zamanda dövlətimizin dini konfessiyalar üçün yaratdığı şəraiti yüksək qiymətləndiriblər.



# "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"

## TOVUZDA

Oktyabrın 4-5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili”



mövzusunda ikigünlük seminar-müşavirə keçirilib. Tədbirdə dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Bəhruz Rüstəmov rayondakı dini durum barədə məlumat verib.




Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin dini dəyərlərimizin dirçəlməsinə yönəldiyini, onun milli-mənəvi dəyərlərimizə hər zaman hörmət və qayğı ilə yanaşdığını vurğulayıb. Bildirib ki, bu nümunəvi siyasətin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilməsinin, dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmasının nəticəsi olaraq bu gün ölkəmizdə dini baxımdan stabillik mövcuddur.

S.Salahlı İslamın zorakılığa, terrorizmə qarşı olduğunu və insanlar arasında sevgini, hörməti, anlayışı təbliğ etdiyini vurğulayıb. O, cəmiyyət üçün təhlükəli olan zərərli dini ideologiyaların qarşısının alınması üçün dini maarifləndirməyə böyük ehtiyac olduğunu bildirib və radikalizmlə mübarizədə dini icmaları və din xadimlərini fəal olmağa çağırıb.

Tovuz rayon məscidi dini icmasının sədri Nəriman İbayev isə çıxışında dövlətin dinə və dindarlara qayğısından bəhs edib.

Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən “Üfüqdəki gələcək” sənədli filmi nümayiş olunub.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Cahandar Əlifzadə “Radikalizmə qarşı mübarizədə gənclərin rolu” mövzusunda çıxış edib. O, bəzi radikal qrupların geniş təbliğat işləri apararaq xüsusilə gəncləri öz sıralarına cəlb etməklə onlardan öz niyyətlərinin həyata keçirilməsində istifadə etdiklərini vurğulayıb. C.Əlifzadə radikalizmin qarşısının alınmasında vətənpərvərlik, dövlətçilik amallarının, milli-mənəvi irsin, adət-ənənələrin aşılanması, dini dözümlülük və tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi ruhunda gənc nəslin tərbiyə olunmasının vacibliyinə diqqət çəkib.

## DAŞKƏSƏNDƏ

Analoji ikigünlük seminar-müşavirə oktyabrın 11-12-də DQİDK və Daşkəsən RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Daşkəsən RİH başçısının müavini Cavanşir Qocayev mövzunun aktuallığından danışıb. O, ölkəmizdəki dövlət-din münasibətləri haqqında danışaraq bu uzaqgörən siyasətin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmin fəsadları barədə də ətraflı məlumat verərək bu cür halların yaranma səbəbləri və mübarizə yollarından geniş bəhs edib. Bildirib ki, dini radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq, dini bilgilərin zəif olmasıdır. Ona görə də dini radikalizmlə mübarizədə, ilk növbədə, dini maarifçilik işinin təşkilinə, ictimaiyyətin bütün təbəqələrinin bu prosesə cəlb olunmasına xüsusi önəm verilməlidir.

Daşkəsən cümə məscidinin imamı Fariz Hüseynov dinə və dindarlara göstərdiyi qayğıya görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

Seminar-müşavirənin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən “Üfüqdəki gələcək” sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elmar Əliyev bildirib ki, Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində təşkil etdiyi tədbirlər gənc nəslin yad dini ideologiyaların təsirindən qorunmasında, eləcə də onların düzgün dini bilgilərlə məlumatlandırılmasında əhəmiyyətli rol oynayır.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Cahandar Əlifzadə dini radikalizmin yaranma səbəblərindən söhbət açıb. Qeyd edib ki, radikal ideologiya daşıyıcılarının əsas hədəfi hər zaman gənclər olublar. Buna görə də xüsusilə gənclər elmi biliklərini artırmaqla yanaşı, mötəbər mənbələrdən yararlanaraq təməl dini bilgilərə də yiyələnməyə çalışmalıdırlar.

## LERİKDƏ

Eyni mövzuda daha bir seminar-müşavirə oktyabrın 18-19-da DQİDK və Lerik RİH-in birgə təşkilatçılığı ilə təşkil olunub.

Dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni açan Lerik RİH başçısının müavini Arzu Vəliməmmədova rayondakı dini durum barədə məlumat verib. Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı Sərəncamın dini icmaların cəmiyyətə inteqrasiyasında mühüm rol oynadığını bildirib.

İştirakçıları Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycan təkcə sosial-iqtisadi uğurlarına, hərbi-siyasi potensialına görə deyil, eyni zamanda vicdan azadlığının təmin edilməsinə, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin qorunmasına görə regionda ön sıradadır. Ölkədə Ümummilli Liderimiz Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq dini konfessiyalar arasında dözümlülük mühitinin inkişaf etdirilməsi sahəsində dönüş yaranıb, dövlətlə dini qurumların münasibəti yeni mərhələyə qədəm qoyub.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi İlham Əliyev dinə dövlət qayğısından bəhs edib. Din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini maarifləndirmə işinin təşkilinin daha da yaxşılaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrıldığını deyib.

Seminar-müşavirə öz işini növbəti gün davam etdirib. Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Arzu Vəliməmmədova gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirlərinin mühüm rola malik olduğunu bildirib, onların milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyini diqqətə çatdırıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin mövcudluğunu istəməyən bəzi qüvvələr ölkəmizdə xalqımızın milli-mənəvi dəyərlərinə yad olan ideologiyaları təbliğ edərək ictimai sabitliyi pozmağa cəhd edirlər. Onların əsas hədəfinin gənclər olduğunu vurğulayan birinci müavin gənclərin düzgün dini biliklərlə məlumatlandırılmasının və onların elmə-təhsilə yiyələnmələrinin dini radikal qrupların təsirindən qorunmaları baxımından olduqca əhəmiyyətli olduğunu qeyd edib.



Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə dini radikal qrupların təbliğat metodlarından danışıb. Bildirib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin böyük rolu var.

Daha sonra DQİDK-nın sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən “Üfüqdəki gələcək” sənədli filmi nümayiş etdirilib.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Oktyabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 26 dini icmaya şəhadətnamələr təqdim olunub. Bu məqsədlə təşkil olunmuş tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında ölkəmizdəki dövlət-din münasibətlərindən danışıb. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin davamı kimi Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, yüksək tolerantlıq mühitinin və dini dözümlülüyün gücləndirilməsinə xüsusi diqqət ayırır. Eyni zamanda, ölkəmizdə dini ibadətgahların inşasına və yenidən qurulmasına önəm verilir, mütəmadi olaraq müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır. DQİDK sədrin birinci müavini dini icmaları xalqımızın gen yaddaşından gələn tolerant və multikultural ənənələrin yaşadılmasında, gələcək nəsillərə ötürülməsində, eləcə də dini radikalizmə qarşı mübarizədə və maarifləndirmə prosesində fəal olmağa çağırıb.

Daha sonra çıxış edən Şamaxı rayonu Dəmirçi kənd məscidi dini icmasının sədri Nəbi İsgəndərov vətəndaşların vicdan azadlığının yüksək şəkildə təmin olunması üçün yaradılan şəraitdən, dini sahəyə göstərilən qayğıdan məmnunluğunu ifadə edib.

Sonda qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim olunub.

## Səyavuş Heydərov: Ölkəmizdə formalaşmış dövlət-din münasibətləri dünyaya nümunədir



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov oktyabrın 10-da BOS Şelf şirkətinin kollektivi ilə görüş keçirib.

Əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş “Şəhadət” sənədli filmi nümayiş olunub. Sonra çıxış edən Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda ölkəmizdə formalaşmış dövlət-din münasibətləri dünyaya nümunədir. Regionun lider ölkəsi olan Azərbaycanın güclü rəhbərinin olduğunu vurğulayan natiq bildirib ki, dövlətimizin başçısı tərəfindən sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan “Bakı prosesi”nin əsası qoyulub və bu təşəbbüs sonrakı illərdə qlobal prosesə çevrilib. O, Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən də danışıb.

Dövlət Komitəsi sədrinin müavini təəssüflə qeyd edib ki, bəzi qüvvələr öz maraqlarını həyata keçirmək üçün din amilindən istifadə edirlər: “Bəzi dairələr tərəfindən ölkəmizə qarşı dini zəmində yönəlmiş təhdidləri nəzərə alsaq, biz də bu neqativ proseslərdən sığortalanmamışıq. Buna görə də respublikamızda ictimai-siyasi sabitliyin qorunması, eləcə də dini radikalizm və ekstremizmlə mübarizə sahəsində hər kəsi fəal olmalıdır”.

Sonda çıxış edən şirkətin rəhbəri İftixar Axundov bu cür tədbirlərin keçirilməsinin, xüsusilə dini radikalizmə qarşı mübarizədən bəhs edən “Şəhadət” sənədli filminin maarifləndirmə sahəsində əhəmiyyətindən danışıb.

## «Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları»



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə oktyabrın 18-də Ağsu Rayon İcra Hakimiyyətində “Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları” mövzusunda regional seminar-müşavirə keçirilib.

Tədbirin əvvəlində DQİDK-nın sifarişi əsasında çəkilmiş “Şəhadət” sənədli filmi nümayiş olunub.

Baş Prokurorluq, Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağsu, Şamaxı, İsmayıllı, Göyçay və Qəbələ rayonlarının yerli strukturlarının rəhbərləri, bölgənin din xadimləri, dini icma sədrləri, gənclər, eləcə də rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atılıb. Adət-ənənələrimizə hörmət hissi, milli-mənəvi, əxlaqi dəyərlərimizin qorunmasına diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. RİH başçısı vurğulayıb ki, ölkəmizdəki tolerant və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul olunur.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini S.Heydərov bildirib ki, ölkəmizdə milli-mənəvi və dini dəyərlərin zəngin inkişaf tarixi və ənənələri var. Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Qeyd edib ki, Azərbaycanın öz multikultural dəyərləri ilə dünyada islamofobiya adı altında müsəlman ölkələrinə yönəlmiş tənqid və etirazları puça çıxarması ölkəmizə qarşı təhdid və təzyiqlərin daha da artması ilə nəticələnib.

Sədr müavininin sözlərinə görə, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan milli təhlükəsizlik konsepsiyasının başlıca komponentlərindən biri məhz dini təhlükəsizlikdir. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən danışmaq olar.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onunla mübarizənin hüquqi əsasları barədə məlumat verərək qeyd edib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işlərinin gücləndirilməsindən ibarətdir.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov və Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oktay Tağıyev dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə geniş məlumat veriblər. Natiqlər dini radikalizm və ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə hüquq mühafizə orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən, təmsil etdikləri qurumların müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Mərhəmət Mustafayev dövlətin din xadimlərinə göstərdiyi qayğıdan danışıb. Bildirib ki, son zamanlar ölkə rəhbərliyinin dəstəyi ilə respublikamızda onlarla məscid tikilib və əsaslı təmir edilib. Din xadimlərinin daim öz fəaliyyətlərində dövlətçilik və azərbaycançılıq prinsiplərini uca tutaraq ölkəmizdəki mövcud tolerantlıq və birgəyaşayış mühitinin, vəhdətin daha da möhkəmlənməsinə çalışdıqlarını və heç zaman xarici yad ideologiyaların ölkəmizdəki dini mühitə daxil olmasına imkan verməyəcəklərini bildirib.

# "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri – dini ekstremizm"



Oktyabrın 30-da Ağdaşda "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri – dini ekstremizm" mövzusunda seminar-müşavirə keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) rəhbərliyi, Prezident Administrasiyasının məsul əməkdaşı, Ağdaş, Mingəçevir, Yevlax, Ucar və Kürdəmir rayonlarının icra hakimiyyətləri başçılarının müavinləri, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda, bu qurumların adıçəkilən rayonlardakı yerli strukturlarının məsul nümayəndələri iştirak ediblər.

Əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş olunub.

Seminar-müşavirəni açan Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov nümunəvi dövlət-din münasibətlərindən, dövlətin din siyasətindən danışıb.

Bakıda VI Beynəlxalq Humanitar Forumun keçirilməsinin əhəmiyyətindən danışan DQİDK-nın sədr müavini Səyavuş Heydərov qeyd edib ki, Forumun başlıca məqsədi gələcəkdə beynəlxalq səviyyədə humanitar çağırışları aktuallaşdırmaq, mənfi meyillərin qarşısını almaq və dünyada sülhün bərqərar olunmasına töhfə verməkdir. Forumdakı çıxışlar zamanı Azərbaycandakı tolerantlıq, multikulturalizm mühitinə böyük dəyər verilməsi, nəzəriyyədən praktikaya keçirilməsi və Azərbaycan modelinin tətbiqinin vacibliyi diqqətə çatdırılıb, dünya birliyinin Azərbaycanın tolerantlıq modelinə böyük dəyər verdiyi vurğulanıb.

Səyavuş Heydərov dini radikalizm və ekstremizmin yaranma səbəblərindən, mahiyyətindən və ona qarşı mübarizə üsullarından da bəhs edib. Radikalizmlə mübarizədə əsas metodlardan birinin maarifləndirmə olduğunu diqqətə çatdıran natiq din sahəsi üzrə milli kadrların yetişdirilməsinin vacibliyinə toxunub.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə məlumat verib. R.Məmmədov 2015-ci ildə "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunduğunu qeyd edib, dini ekstremizmə qarşı mübarizənin məqsədlərindən və əsas prinsiplərindən söz açıb.

Seminar-müşavirədə çıxış edən Daxili İşlər Nazirliyinin şöbə rəisi Oktay Tağıyev vurğulayıb ki, sabit, tolerant, regionun ən qüdrətli ölkəsi olan Azərbaycan xarici qüvvələrin təhdidlərindən kənarda deyil.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazısı Əli Məmmədov ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, əmin-amanlığı, sabitliyi pozmağa, yad dini ideologiyaları İslam adı altında təbliğ etməyə çalışan bəzi ünsürlərə qarşı mübarizədə din xadimlərinin qarşısında duran vəzifələrdən və bu sahədə həyata keçirilən tədbirlərdən danışıb.

Seminar-müşavirədə Azərbaycan Respublikası Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov da iştirak edib.

# "Dünyəvilik və azərbaycançılıq prinsiplərinin qorunması son dərəcə vacibdir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətində oktyabrın 11-də "Dini ekstremizmin mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbir keçirilib.

Əvvəlcə DQİDK-nın sifarişi əsasında çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Aviasiya Təhlükəsizlik Baş İdarəsinin kollektivinin və "Silk Way Holding" MMC-nin "Grand Holding Company" filialının rəhbər heyətinin iştirak etdiyi tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, ölkəmizdəki tolerant və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul olunur. O deyib ki, ölkəmiz bu gün dünyaya təkcə enerji təhlükəsizliyində deyil, eyni zamanda qlobal təhlükəsizlik məsələlərində də töhfə verən ölkəyə çevrilib.

DQİDK-nın sədr müavini Azərbaycan dövlətinin din siyasətinin prioritet istiqamətlərindən danışaraq vurğulayıb ki, dövlətin bu sahədə başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi, həmçinin respublikamızda milli dini kadrların hazırlanmasıdır. O bu məqsədlə DQİDK-nın tabeliyində Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının, din xadimlərinin maddi təminatının yüksəldilməsi üçün onlara maddi dəstək verilməsinin Prezident İlham Əliyev tərəfindən atılmış uzaqgörən, məntiqli və mütərəqqi addım olduğunu diqqətə çatdırıb. Natiq qeyd edib ki, ölkəmizə qarşı dini müstəvidə yönəlmiş təhdidləri nəzərə alaraq, vətəndaşlarımızın ayıq-sayıq olmaları, respublikamızda formalaşmış milli-mənəvi dəyərlər, xüsusilə tolerantlıq və multikultural ənənələr, dünyəvilik və azərbaycançılıq prinsiplərinin qorunması və daha inkişaf etdirilməsi son dərəcə vacibdir.

Daha sonra çıxış edən Baş İdarənin direktor müavini Etibar Cəbrayılov mövzunun əhəmiyyətindən danışıb, son illər dini radikalizmə qarşı fəal və məqsədyönlü maarifləndirmə işinin aparıldığını bildirib. Bu baxımdan DQİDK-nın sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filminin nümayişinin insanların, xüsusilə gənclərin milli-mənəvi dəyərlərimizə bağlılığının, eləcə də vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.



# Dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutur



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə oktyabrın 16-da Dövlət Gömrük Komitəsinin (DGK) Hava Nəqliyyatında Baş Gömrük İdarəsində "Dini ekstremizmin mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbir keçirilib.

Əvvəlcə DQİDK-nın sifarişi əsasında çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən DGK-nın Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi, polkovnik Bəhruz Quliyev mövzunun əhəmiyyətindən danışıb, DQİDK-nın dini maarifləndirmə, eləcə də dini radikalizmlə mübarizə sahəsindəki fəaliyyətini yüksək qiymətləndirib.

DQİDK-nın sədr müavini S.Heydərov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ictimai-siyasi, o cümlədən dini durum sabitdir. Bildirib ki, dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutur, eyni zamanda ictimai-siyasi asayişin daha mükəmməl təminatı üçün mühümdür.

Natiq dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə də ətraflı məlumat verib, DQİDK-nın digər qurumlar, o cümlədən hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Sonda DQİDK sədr müavini dini radikalizm və dini ekstremizmlə mübarizədə hər kəsin ayıq-sayıq olmasının vacibliyini diqqətə çatdırıb.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ: GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR"



Oktyabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Abşeron Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Xırdalan şəhərində "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda seminar-treninq keçirilib.

Rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və aktiv gənclərin iştirak etdiyi seminar-treninqi giriş sözü ilə açan Abşeron RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüqar Bəşirov mövzunun əhəmiyyətindən danışıb, rayonda keçirilən dini maarifləndirmə tədbirlərinin önəminə də toxunub.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini radikalizmə qarşı mübarizədə ardıcıl, sistemli və intensiv maarifləndirmənin mühüm rol oynadığını vurğulayıb. Sədr müavini qeyd edib ki, bu sahədə yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliği olduqca vacibdir. Çünki ənənəvi İslam dinin siyasiləşməsinə, bölücülüyə haqq qazandırmır. DQİDK-nın sədr müavini onu da bildirib ki, məzhəbçilik, təhsildən uzaqlaşma dini radikalizmin əsas elementlərindəndir. Eyni zamanda, haqsız yerə qan tökmək, qətl törətmək dinimizdə ən böyük günahlardan hesab olunur.

Seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

* * *

Bu mövzuda növbəti tədbir oktyabrın 17-də Yardımlıda baş tutub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Yardımlı RİH-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Yardımlı RİH başçısının müavini Əfsanə Məmmədova, Rayon Təhsil Şöbəsinin müdiri Məhluqə Novruzova, rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və aktiv gənclər iştirak ediblər.

Seminar-treninqi giriş sözü ilə açan RİH başçısının müavini Əfsanə Məmmədova bildirib ki, dövlətimiz tərəfindən milli-mənəvi, o cümlədən dini dəyərlərə qayğı göstərilir. Vurğulayıb ki, ölkədə dini dözümlülük və tolerantlıq dövlət siyasətinin tərkib hissəsinə çevrilib.



DQİDK sədrinin müavini Gündüz İsmayılov qeyd edib ki, dindarlıqla dünyəviliyin harmonik vəhdəti xalqımızın milli dövlətçiliyinin fərqləndirici xüsusiyyətlərindəndir. Lakin təcrübə göstərir ki, dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasını arzu etməyən, fürsət düşdükcə onu pozmağa çalışan və təfriqə yaradan qüvvələr də var. Bu baxımdan dinlə bağlı məsələlərə təkcə insan hüquqları və milli-mənəvi dəyərlər baxımından deyil, həm də özünün təhlükəsizlik nöqteyi-nəzərindən yanaşması dövlətin borcu və müstəsna hüququdur.



Yardımlı Rayon Təhsil şöbəsinin müdir müavini Məhluqə Niyazova dini maarifləndirmə işinin doğru və sağlam qaynaqlar vasitəsi ilə aparılmasının vacibliyinə diqqət çəkib.

Seminar-treninq müzakirələrlə davam edib.

* * *

"Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda daha bir tədbir oktyabrın 23-də DQİDK və Yevlax ŞİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Yevlax ŞİH başçısının müavini Elnarə Məmmədova, rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və aktiv gənclər iştirak ediblər.

Seminar-treninqi giriş sözü ilə açan Yevlax ŞİH başçısının müavini Elnarə Məmmədova bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Respublikamızda ənənə halını almış tolerant və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini G.İsmayılov qeyd edib ki, Azərbaycanda heç zaman dinlərarası və məzhəblərarası qarşıdurma baş verməyib. İslamın sülh və əmin-amanlıq dini olduğunu diqqətə çatdıran sədr müavini onu da vurğulayıb ki, İslam yalnız inanc, mənəvi dəyərlər sistemi deyil, fərdlə yanaşı, cəmiyyəti də öz prinsiplərinə uyğun formalaşdırmağı qarşısına məqsəd qoyan və ilahi mahiyyət daşıyan dəyərlər sistemidir.

DQİDK-nın sədr müavini deyib ki, dinin dünya həyatı ilə bağlı qarşısına qoyduğu əsas hədəfləri var. Bu hədəflər təməl insan hüquqlarını – vicdan azadlığını, mülkiyyət, ailə və sağlamlıq hüququnu qorumaq, eləcə də cəmiyyətdə ədalət anlayışını maksimum təmin etməkdir.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dindən sui-istifadə edilməsi, müqəddəs mətnlərin kontekstdən çıxarılaraq fərqli formada təqdim olunması hallarına rast gəlindiyini bildirib. Vurğulayıb ki, dini radikalizmin istənilən istiqaməti və forması cəmiyyət üçün təhlükədir.

Seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "Dini təhsil, dini tərbiyə və dünyəvilik"




Oktyabrın 30-da Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda konfrans keçirilib.

Tədbirdə Bakı şəhərinin Yasamal, Səbail və Nəsimi rayonlarının ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimləri iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ümumtəhsil məktəblərində milli-mənəvi, o cümlədən dini dəyərlərimizlə bağlı biliklərin dərinləşdirilməsinə ehtiyac olduğunu qeyd edib. O, dinlə bağlı məlumatların etibarlı mənbədən almalarının vacibliyini vurğulayıb. Dini biliklər deyildikdə əsasən bütün dinlərin, müqəddəs kitabların mahiyyətinin, eləcə də dini radikalizm haqqında məlumatlar nəzərdə tutulur. Gənclərə lazımi dini biliklərin sistemli şəkildə verilməməsi onların dini radikalizmin, xurafatın təsirinə düşmə ehtimalını artırır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov qloballaşma adı altında milli-mənəvi dəyərlərimizin sıxışdırılmasının onun məhvinə gətirib çıxara biləcəyini qeyd edib. Yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə yaratdığını bildirib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov isə cəmiyyətimiz üçün real təhlükə olan dini fanatizm, dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə danışıb.

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini fanatizmə, xurafata, radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**2 oktyabr** – Zaqatala Rayon İcra Hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin Zaqatala rayon şöbələrinin birgə təşkilatçılığı ilə Zaqatala Dövlət İdarəetmə və Texnologiya kollecində "Milli-mənəvi və dini dəyərlərimizi qoruyaq" mövzusunda; Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "Radikal dini cərəyanlarla mübarizədə maarifçilik işinin təşkili" layihəsi çərçivəsində "Dəyər" Mənəvi İrsin Təbliği İctimai Birliyinin təşkilatçılığı və DQİDK-nın dəstəyi ilə Qusar və Quba rayonlarında;

**3-4 oktyabr** - Gəncədə DQİDK-nın təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə qadınların yeri və rolu" mövzusunda;




**4 oktyabr** - Astara Rayon İcra Hakimiyyətinin dəstəyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "Şəhidlik-mənəvi dəyər kimi" mövzusunda;

**6 oktyabr** - DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Binəqədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dövlət qulluğu nədir?" mövzusunda;

**9 oktyabr** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Mamrux kənd tam orta məktəbində "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda;

**10 oktyabr** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər Gənclər və İdman İdarəsi və Lənkəran Dövlət Humanitar Kollecinin birgə təşkilatçılığı ilə "Vətənpərvərliyin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı Rayon İcra Hakimiyyəti və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya qarşı mübarizədə din amili" mövzusunda;

**12 oktyabr** – Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "Mənəvi dəyərlərimiz - dünən, bu gün, sabah" mövzusunda;

**16 oktyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Narkomaniyaya "yox" deyək" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Yuxarı Çardaxlar kənd tam orta məktəbində "Milli-mənəvi və dini dəyərlərimiz" mövzusunda; DQİDK-nın və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının birgə təşkilatçılığı ilə Lənkəranda yerləşən "N" saylı hərbi hissədə "Müasir dövrdə dini təhlükəsizlik ictimai-siyasi təhlükəsizliyin prioritet istiqamətidir" mövzusunda;

**17 oktyabr** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Rayon Gənclər və İdman İdarəsi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;



Qazax Rayon İcra Hakimiyyəti və DQİDK-nın birgə təşkilatçılığı ilə Alpout kənd orta məktəbində "Sağlam gənclik naminə dini radikalizmə, erkən nigaha, narkomaniyaya "yox" deyək" mövzusunda; Balakən Rayon İcra Hakimiyyəti və DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu akademik Z.Əliyeva adına şəhər 3 saylı tam orta məktəbində "Müasir gənclik və Azərbaycan" mövzusunda;

**19 oktyabr** – Biləsuvar Rayon İcra Hakimiyyətinin dəstəyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "Şəhidlik mənəvi dəyər kimi" mövzusunda;

**23 oktyabr** – Qazax Rayon İcra Hakimiyyəti və DQİDK-nın birgə təşkilatçılığı ilə Ürkməzli kənd orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Nizami Rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə 70 saylı tam orta məktəbdə "Dini radikalizmə və ekstremizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Rafiq İsmayılov adına Xızı şəhər tam orta məktəbində "Uşaq Aylığı" çərçivəsində "Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**24 oktyabr** - DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional mərkəzinin və Şabran Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şabran şəhəri 3 saylı tam orta məktəbində "Uşaqları dini fanatizm və radikalizm təhlkəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Əbülfət Musayev adına Vizəzəmin kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizə: nəticələr və vəzifələr" mövzusunda;

**25 oktyabr** - DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi tərəfindən Xırdalan şəhər 3 nömrəli tam orta məktəbdə "Uşaq hüquqları aylığı" çərçivəsində



"Məktəblilərin dini radikalizmin zərərli təsirlərindən mühafizəsi yolları" mövzusunda; İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq!" mövzusunda; Məhkumların dini maarifləndirilməsi məqsədilə 10-cu və 11-ci cəzaçəkmə müəssisələrində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin DQİDK ilə birgə Tədbirlər Planı çərçivəsində;

**26 oktyabr** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara Rayon Təhsil Şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində Astara şəhər 3 nömrəli tam orta məktəbində "Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Cocuq Mərcanlı kəndində "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqların təhsil hüququnun pozulması: erkən nikah problemi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis şöbəsi və Sakit Tağıyev adına Masallı şəhər 4 saylı Digah tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Gəncləri dini radikalizm və digər zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmişli rayonu Şahverdili kənd Fikrət Cəbrayılov adına tam orta məktəbdə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq" mövzusunda;

**29 oktyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində Elton Əkbərov adına şəhər 2 saylı tam orta məktəbdə "Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**30 oktyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayonu Gənclər və idman idarəsi və Oğuz rayonu Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində Həbib Babayev adına Oğuz şəhər 1 nömrəli orta məktəbdə "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin, İnsan Hüquqları üzrə Müvəkkilinin Cəlilabad regional mərkəzi və Sakit Tağıyev adına Masallı şəhər 4 saylı Digah tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda keçirilib.



Tədbirlərdə çıxış edən natiqlər milli-mənəvi, o cümlədən ölkəmizdə tarixən mövcud olan tolerant və multikultural dəyərlərin qorunması, dini radikalizm və ekstremizm kimi neqativ hallarla mübarizə məsələlərinə toxunublar. Dini radikalizmi yaradan səbəblər və onun müasir dövrdəki təzahürlərindən söz açılan tədbirlərdə bildirilib ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Gənclər və uşaqlar arasında maarifləndirmə işinin aparılmasının əhəmiyyətinə toxunulan tədbirlərdə isə bildirilib ki, bu cür tədbirlər uşaqların təlim-tərbiyəsində və onların cəmiyyət üçün faydalı fərd kimi yetişməsində, zərərli vərdişlərlə və narkomaniya ilə mübarizədə, eyni zamanda milli-mənəvi dəyərlərin qorunmasında böyük rol oynayır.

# “Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə” inşa-yazı müsabiqəsinin nəticələri elan olunub



Oktyabrın 30-da Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən “Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə” mövzusunda konfrans keçirilib. Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə Bakı məktəbliləri arasında təşkil olunan “Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə” inşa-yazı müsabiqəsinin nəticələrinin də elan olunduğu konfransda Fondun rəhbərliyi, Bakı şəhəri üzrə Təhsil İdarəsinin nümayəndələri, müsabiqədə iştirak edən məktəblilər, məktəb direktorları, müəllimlər və valideynlər iştirak edib.

Tədbiri giriş sözü ilə açan Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov məktəblilərin milli ruhda tərbiyəsi, onların Azərbaycan tarixi,



Azərbaycan mədəniyyəti, adət-ənənələrimiz və dəyərlərimiz barədəki biliklərinin artırılması və ümumilikdə şagirdlərin bu mövzularda özlərini ifadə etmə bacarıqlarının inkişafı baxımından bu cür müsabiqələrin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Fond rəhbəri Təhsil Nazirliyi ilə birgə Bakı məktəbliləri arasında keçirdikləri bu müsabiqənin həmin məqsədi daşıdığını vurğulayıb. Bildirib ki, Fond gələcəkdə də məktəblilərlə bu cür maarifləndirici layihələr həyata keçirmək niyyətindədir.

Bakı şəhəri üzrə Təhsil İdarəsinin nümayəndəsi Afiq Əzizov məktəblilər arasında keçirilən bu müsabiqənin onların təhsilə olan maraqlarını daha da artıracağını, gələcəkdə bu cür tədbirlərin davam etdirilməsinin zəruriliyini qeyd edib.



Bakı şəhəri üzrə Təhsil İdarəsinin digər nümayəndəsi Rövşən Əliyev mənəvi dəyərlərin mahiyyətindən danışıb, məktəblilərin dəyərlərimizi dərindən bilmələrinin vacibliyini vurğulayıb.

Daha sonra isə münsiflər heyətinin seçiminə əsasən müəyyənləşdirilən qaliblərin adları elan edilib. Müsabiqənin nəticələrinə görə 1-ci yerə Bakı şəhər 287 saylı “Zəkalar” liseyinin 9-cu sinif şagirdi Ağamirzadə Əsmər Samir qızı layiq görülüb. Sonda qaliblər mükafatlandırılıb, onlara diplom və sertifikatlar təqdim olunub.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**İmişli rayonu Otuziki kəndi “Seyyid Mirağa” məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A-815
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Otuziki kəndi, “Seyyid Mirağa” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Savalan Əlibala oğlu Ağayev*

**Neftçala rayonu Mirqurbanlı kəndi “İmam Museyi-Kazım” məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-816
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Mirqurbanlı kəndi, “İmam Museyi-Kazım” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Sadiq Rafiq oğlu Əzizov*

**İmişli rayonu Murğuzalılı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A-817
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Murğuzalılı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: İlham Qaraoğlan oğlu Mustafayev*

**Ağdaş rayonu Aşağı Qəsil kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A-818
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Aşağı Qəsil kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Nadir Ağamməd oğlu İsmayılov*

**Saatlı rayonu Xanlarkənd kəndi “Zeynəbiyyə” məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-819
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Xanlarkənd kəndi, “Zeynəbiyyə” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Ələsgər Tapı oğlu Qasımov*

**Masallı rayonu Təklə kəndi “İmam Əli” məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-820
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Təklə kəndi, “İmam Əli” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Seyran Əli oğlu Mikayılov*

**Saatlı rayonu Bəylər kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-821
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Bəylər kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Yasin Bayramqulu oğlu Muradov*

**Yardımlı şəhər Daşkənd məhəllə məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118D-822
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yardımlı şəhər, Daşkənd məhəllə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Elşad Ağaşükür oğlu Xankişiyev*

**Masallı şəhəri “Əbülfəzl” məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-823
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı şəhəri, Seybətin küçəsi, “Əbülfəzl” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Ağabala Miri oğlu Bağırov*

**Şamaxı rayonu Dəmirçi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-824
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şamaxı rayonu, Dəmirçi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Nəbi Salman oğlu İsgəndərov*

**Sabirabad rayonu Türkədi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-825
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Türkədi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Rəqib Əlixorasan oğlu Məmmədov*

**Lerik rayonu Andurma kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-826
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Andurma kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Sənan Əbu oğlu Köçəriyev*

**Masallı rayonu Binə Xocavar kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-827
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Binə Xocavar kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Kamran Mahmud oğlu Dadaşzadə*

**Lənkəran rayonu Gəgiran kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-828
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Gəgiran kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Nəsir Pirəli oğlu Rəcəbov*

**Qəbələ rayonu Çarxana kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-829
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Çarxana kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Mirsaleh Seyidəzim oğlu Seyidzadə*

**Salyan rayonu Peyk kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-830
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Peyk kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Nurəhməd Nurməmməd oğlu Nuriyev*

**Masallı rayonu Kürdəbaz kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-831
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Kürdəbaz kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Bahadır Əzizalı oğlu Şahbazov*

**Salyan rayonu Kolanı kəndi "İmam Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-832
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Kolanı kəndi, "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Yaşar Şirməmməd oğlu Məmmədov*

**Sabirabad rayonu Cavad kəndi "Şeyx Ağa Şirvani" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-833
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Cavad kəndi, "Şeyx Ağa Şirvani" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Zahid Xanqulu oğlu Fərəcov*

**Ağdaş rayonu Tofiqi kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A-834
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Tofiqi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Cavid Sədiyar oğlu Vahıbov*

**Salyan rayonu Marışlı kəndi "Mirtağı" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-835
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Marışlı kəndi, "Mirtağı" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Eldar Zəkəriyyə oğlu Babayev*

**Sabirabad rayonu Qaragüney kəndi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-836
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Qaragüney kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Elməddin Nemət oğlu Qələndərov*

**Saatlı rayonu Seyidlər kəndi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-837
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Seyidlər kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Niyaz Diyas oğlu Sadıqov*

**Lerik rayonu Şinəband kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-838
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu, Şinəband kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Arif Gülhəsən oğlu Əbdülov*

**Salyan rayonu II Varlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-839
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, II Varlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: İmamyar Nuru oğlu Heydərov**

**Bakı şəhəri Yasamal rayonu "Hacı Cavad" məscidi dini icması**
Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118B-840
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 3a, "Hacı Cavad" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
*Qanuni təmsilçisi: Kənan Sərvan oğlu Əzizov*

## Dəyişiklik

**Şəki (hafizlik) İslam Kolleci**
Qeydiyyat tarixi: 15 mart 2017-ci il
Qeydiyyat №-si: 100117C – 737
Qafqaz Müsəlmanları İdarəsinin Qərarı və digər sənədlərə əsasən "Şəki (hafizlik) İslam Kolleci"nin adı dəyişdirilərək "Şəki İslam Kolleci" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: **09 oktyabr 2018-ci il**

**Şamaxı rayonu II Cabanı kəndi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 10 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 471
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Temirov Bahadır Şükür oğlu, Temirov Rüstəm Şükür oğlu, Usenov Muzaffar Qasım oğlu, Məmmədov Məhəmməd Murtaza oğlu, Rəsulov Murad Mukat oğlu, Həsənov Mustafa Osman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Bayramov Rövşən Kamal oğlu, Rasulov Mukat Saxanbar oğlu, Əzizov Satridin Kibar oğlu, Usmanov Muxamməd Sərdal oğlu, Qafurov Qafur Kirman oğlu, Şarifov Murad Binali oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: **18 oktyabr 2018-ci il**

**Göyçay rayonu Qaraməryəm kəndi "Fatimeyi Zəhra" məscidi dini icması**
Qeydiyyat tarixi: 31 mart 2014-cü il
Qeydiyyat №-si: 100114A1 – 567
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Yalçın Nağı oğlu, Fərəcullayev Əfrayıl Qəybulla oğlu, Abuzərov Saabəli Abbas oğlu, Xanbutov Aleksandr İsgəndər oğlu, Hüseynova Dilbər Bilal qızı, Sultanov Zaur İsa oğlu, Kərimov Sultan Soydan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, İsmayılov Röyal İsmayıl oğlu, Eyvazov Elçin Əli oğlu, Kərimov Faiq Elçin oğlu, Hüseynov Rauf Əhməd oğlu, Quliyev Fəqan Rəcəb oğlu, Rəhimov Zülfiqar Yunis oğlu, Tağıyev Aqil Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: **18 oktyabr 2018-ci il**

## Elan

Qobustan rayonu Bəklə kənd dini icması (02.04.2002-ci ildə, 85 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 29 oktyabr 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

***02.04.2002-ci ildə, 85 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Qobustan rayonu Bəklə kənd dini icmasına məxsus möhür-ştamp itdiyi üçün etibarsız sayılır.***

CƏMİYYƏT və DİN
№ 10 (327) / OKTYABR 2018-ci il

## MİSİRDƏ II RAMZESİN TAXT-TACININ QALIQLARI AŞKARLANIB



Misirin Ayn-Şəms Universitetinin arxeoloji missiyası Qahirə şəhərinin yaxınlığında yerləşən məbəd kompleksində qazıntıları başa çatdırıb.

Kompleks ötən il aşkarlanıb. Mütəxəssislər kompleksin firon II Ramzesə məxsus olduğunu və onun hakimiyyəti dövründə mühüm mərasimlərin keçirilməsi üçün istifadə edildiyini müəyyənləşdiriblər. Alimlərin fikrincə, bu mərasimlər fironlar sülaləsi hakimiyyətinin bütün dövrlərində burada keçirilib.

Bildirilir ki, arxeoloqlar tərəfindən əsas mərasim zalının xarabalıqları arasında taxt-tacın qalıqları, eləcə də üzərində heroqlif mətnlər cızılmış daş kolleksiyası, gildən hazırlanmış qablar, həmayillər və "böcəklər" aşkarlanıb.

## NASA insanları Veneraya göndərəcək



NASA Venera planetinə idarə olunan uçuş layihəsini hazırlayıb.

Layihə Veneraya mütəxəssislərdən ibarət ekspedisiyanın göndərilməsini nəzərdə tutur.

Dirijablla Veneraya yollanacaq alimlər bir aydan sonra geri qayıdacaqlar. Hazırda elm ictimaiyyətinin diqqəti Mars planetinə yönəlsə də, NASA mütəxəssisləri hesab edirlər ki, kosmik ekspedisiyaların növbəti ünvanı məhz Venera olacaq.

Ekspedisiya üzvləri 50 kilometr hündürlükdən araşdırmalarını aparacaqlar. Venerada yerin üst qatında temperatur yüksək olduğundan dirijablın yerə enməsi nəzərdə tutulmur. Lakin 50 km hündürlükdə atmosferin göstəriciləri Yer kürəsinin analoji göstəricilərinə oxşayır.

Araşdırma bitdikdən sonra dirijabldan raket atılacaq. Bu raket vasitəsi ilə ekspedisiya üzvləri orbitə qayıdacaqlar, oradan isə kosmik gəmi ilə Yerə dönəcəklər.

### Yadigar söz

*Frensis Bekon,*
*İngilis filosofu*

**Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Noyabr - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:49 | 07:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 05:49 | 07:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 05:50 | 07:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 05:51 | 07:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 05:52 | 07:14 | 12:24 | 15:52 | 17:48 | 18:52 |
| 6 | 05:53 | 07:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 05:54 | 07:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 05:55 | 07:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 05:56 | 07:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 05:57 | 07:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 05:58 | 07:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 05:59 | 07:22 | 12:25 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 06:00 | 07:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 06:01 | 07:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 06:02 | 07:26 | 12:25 | 15:43 | 17:39 | 18:41 |
| 16 | 06:03 | 07:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 06:04 | 07:28 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 18 | 06:05 | 07:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 06:06 | 07:31 | 12:26 | 15:40 | 17:36 | 18:39 |
| 20 | 06:07 | 07:32 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 21 | 06:08 | 07:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 06:09 | 07:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 06:10 | 07:35 | 12:27 | 15:38 | 17:34 | 18:37 |
| 24 | 06:11 | 07:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 06:12 | 07:37 | 12:27 | 15:37 | 17:33 | 18:36 |
| 26 | 06:13 | 07:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 06:14 | 07:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 06:15 | 07:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 06:16 | 07:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 06:17 | 07:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Qara dənizdə ən qədim gəmi tapılıb



Britaniya alimləri Qara dənizin dibində 2400 il yaşı olan ən qədim zədələnməmiş gəmi aşkar ediblər.

Uzunluğu 23 metr olan qədim yunan ticarət gəmisi Bolqarıstan sahilindən təqribən 80 kilometr aralıda sualtı cihaz vasitəsilə tapılıb. Gəminin gövdəsi, sükanı, avarçəkənlərin yerləri, ümumiyyətlə, gəminin özü çox yaxşı vəziyyətdə qalıb. Alimlərin fikrincə, buna səbəb Qara dənizdə 200 metr dərinlikdən sonra demək olar ki, oksigenin olmamasıdır.

Qeyd edək ki, Qara dənizdə alimlər tərəfindən son üç ildə 67 qədim gəmi aşkarlanıb.

## Günəş sistemində yeni planet



ABŞ-dan olan astronomlar Günəş sistemindən ən uzaqda yerləşən "2015 TG387" kiçik planetini aşkar ediblər.

Yeni tapılmış planet 80 astronomik vahid məsafəsindədir və radiusu 300 kilometrdir.

Yeni planeti ölçüsünə görə "Qoblin" adlandırıblar.

Araşdırmaçılar bildirib ki, yeni planetin ölçüsü 2015-ci ildə tapılmış "X" planeti ilə eynidir.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894